

## ESMİRA GÜNƏŞ

# *ÜRƏYİM*

İndi məni dinlə daha ürəyim,
Anladınmı çıxıb gedir yar artıq.
Bəs olmadı sənə bu qədər əzab.
Verməyəcək bu məhəbbət bar artıq.

Sevmə dedim zamanında mən sənə,
Bilə-bilə möhürlənib bağlandın.
Yol yaxınkən gəl qayıdaq deyəndə,
Sən bu eşqin alovunda dağlandın.

Sızıldama, heç ağlama boşuna
Necə sevdin elə də çək əzabı.
Gedəcəyin ilk günündən bilirdin,
İndi dayan gətir görüm sən tabı.

Heç boylanma arxasıyca boşuna,
Hər addımda ayağına vurdu o.
Seçib özgə bir gözəlin eşqini,
Bəy taxtında yad yanında durdu o.

Sən nə qədər çarəsizsən, ürəyim,
Xoşbəxtliyi arzuladın hər anda.
Dilin bircə kəlmə qarğış etmədi,
Ürəyində məhəbbətin yananda.

# *SON ZAMANLAR*

Son zamanlar qanım yaman qaradır,
Heç dərdimi özüm belə bilmirəm.
Gözlərimə hüzün çöküb elə bil,
Son zamanlar danışmıram, gülmürəm.

Elə susqun, elə durqun gəzirəm
Görən deyir: "bu gözəlin dərdi nə?"
Düşünürlər məni belə görəndə,
"Görən, kimdir dəyən bunun xətrinə?"

Bilmədiyim dərdi necə deyim ki,
Sükunətə qərq olubdu ürəyim.
Heç bilmirəm özüm necə edim ki,
Bundan sonra nələr olar köməyim?

Üzüm yenə güləcəkmi, görəsən,
Yenə Günəş gözlü qıza dönərəm?
Əllərim üşüyür, donur ürəyim
Yoxsa ki, bu dərdlə buza dönərəm?

# *BEŞ YAŞIN MÜBARƏK, OĞLUM*

Beşi oktyabrda dəyişdi dünyam,
Ömrümə, günümə sevinc pay oldu.
Görəndə balaca muncuq gözünü,
Oğlumun sevgisi qəlbimə doldu.

Elgünüm adını elə qoymuşam,
Elimə günümə Günəş olasan.
Mənim ürəyimə dolduğun kimi
Gözəl əməllərlə qəlbə dolasan.

Fəxr etsin millətim, fəxr etsin elim,
Desinlər halaldı Vətən çörəyi,
Ananın gözünün işığısan sən
Sənədir ən gözəl arzu-diləyi.

Ad günün mübarək, Tanrıdan payım,
Elgünüm, yüz yaşa sağlam can ilə.
Qoy, arzularını çin etsin sənin,
Mən sənə sevgimi gətirdim dilə.